***Vergi Məcəlləsinə 2017-ci ildən qüvvəyə minəcək dəyişikliklər barədə***

# Vergi ödəyicilərinə

(Əvvəli ötən sayımızda).

***Hörmətli vergi ödəyicisi!***

***Nəzərinizə çatdırırıq ki, 01.01.2017-ci il tarixdən qüvvəyə minən "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının 16.12.2016-cı il tarixli 461-VQD nömrəli Qanununa və Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən 01.01.2017-ci il tarixdən etibarən hesablaşmalar üzrə nağdsız ödənişlər məhdudlaşdırılacaq və qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların nağd qaydada həyata keçirilməsinə görə maliyyə sanksiyaları tətbiq olunacaqdır, eyni zamanda hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə 1 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanacaqdır.***

ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 (iki yüz min) manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30.000 (otuz min) manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15.000 (on beş) min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Yuxarıda qeyd olunan məhdudiyyət ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 (iki yüz min) manatdan artıq olan vergi ödəyicilərinə münasibətdə 2017-ci il yanvarın 1-dən, digər vergi ödəyicilərinə münasibətdə isə 2017-ci il aprelin 1-dən qüvvəyə minir.

Nağdsız hesablaşma dedikdə, aşağıdakılar nəzərdə tutulur:

—bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri (mobil telefon aparatları, kompyuter və digər avadanlıq) ilə həyata keçirilən hesablaşmalar;

—ödəniş terminalları ilə həyata keçirilən hesablaşmalar;

—birbaşa nağd qaydada satıcının bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmalar.

Hər iki tərəf vergi ödəyicisi olan şəxslər arasında hesablaşmalar üzrə nağdsız ödəniş yalnız bir şəxsin bank hesabından digər şəxsin bank hesabına köçürülməklə (o cümlədən ödəniş alətləri (ödəniş kartları, ödəniş tapşırığı və s.) və ödəniş vasitələri (mobil telefon aparatları, kompyuter və digər avadanlıq) ilə həyata keçirilə bilər.

Yuxarıda qeyd olunanlardan asılı olmayaraq aşağıdakı hesablaşmalar yalnız nağdsız qaydada həyata keçirilir:

—vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi;

—"Sığorta fəaliyyəti haqqında" və "İcbari sığorta haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş ödənişlər;

—dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar;

—əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 (iki yüz min) manatdək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqları (o cümlədən, işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən, birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlar;

—stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi;

—faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılması;

—dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi);

—təhsil haqlarının ödənilməsi;

—turagentlərə ödəmələr.

Vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan fiziki şəxslərdən aşağıdakı mallar nağd qaydada satın alına bilər:

—kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının qəbulu;

—əlvan və qara metal qırıntılarının qəbulu;

—utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatların qəbulu;

—utilizasiya məqsədləri üçün işlənmiş şinlərin qəbulu.

Qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların yalnız nağdsız qaydada həyata keçirilməsini təmin etmək vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların nağd qaydada həyata keçirilməsinə görə malı (işi, xidməti) təqdim edən vergi ödəyicisinə qanunvericilik pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Eyni zamanda hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə 1 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.

Belə ki, 01.01.2017-ci il tarixdən qüvvəyə minən "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 16.12.2016-cı il tarixli 454-VQD nömrəli Qanununun 1.5.6-cı, 1.22.2-ci və 1.58.4-cü bəndlərinə əsasən Vergi Məcəlləsinə müvafiq olaraq 16.1.11-8-ci, 58.7-1-ci və 220.12-ci maddələr əlavə edilmişdir.

Bu Qanunla www.taxes.gov.az/mecelle/deyishiklik <http://www.taxes.gov.az/mecelle/deyishiklik> internet ünvanı üzrə tanış ola bilərsiniz.

Odur ki, qanunvericiliklə müəyyən edilmiş maliyyə sanksiyalarına məruz qalmamaq üçün qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatlara nəzarət etməyiniz tövsiyə olunur.

* * *

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən 01.01.2017-ci il tarixdən etibarən vergiləri könüllü açıqlayanlara maliyyə sanksiyası tətbiq edilməyəcəkdir.

Könüllü vergi açıqlaması - səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama zamanı aşkar edilməyən və vergi öhdəliyinin yaranmasına səbəb olan halların vergi ödəyiciləri tərəfindən vergi orqanlarına könüllü olaraq bəyan edilməsidir.

Vergi ödəyiciləri tərəfindən könüllü vergi açıqlaması edildiyi halda bu barədə vergi orqanına forması Vergilər Nazirliyi tərəfindən müəyyən edilən hesabat təqdim edilir.

Könüllü vergi açıqlaması edildiyi halda təqdim edilmiş hesabat üzrə vergi ödəyicisi tərəfindən yalnız hesablanmış vergi məbləği büdcəyə ödənilir.

Belə ki, 01.01.2017-ci il tarixdən qüvvəyə minən "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 16.12.2016-cı il tarixli 454-VQD nömrəli Qanununun 1.2.3-cü və 1.25-ci bəndlərinə əsasən Vergi Məcəlləsinə müvafiq olaraq 13.2.49-2-ci, 72.5-1-ci və 72.5-2-ci maddələr əlavə edilmişdir.

Bu Qanunla www.taxes.gov.az/mecelle/deyishiklik <http://www.taxes.gov.az/mecelle/deyishiklik> internet ünvanı üzrə tanış ola bilərsiniz.

Odur ki, könüllü vergi açıqlamasını etdiyiniz halda faizlər hesablanmayacaq və maliyyə sanksiyasına məruz qalmayacaqsınız.

* * *

01.01.2017-ci il tarixdən qüvvəyə minən Vergi Məcəlləsinə əsasən nəzarət-kassa aparatının çeki və ya qəbz malların alınması ilə bağlı çəkilən xərcləri təsdiq edən sənəd hesab olunmur.

Belə ki, 01.01.2017-ci il tarixdən qüvvəyə minən "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 16.12.2016-cı il tarixli 454-VQD nömrəli Qanununun 1.36-cı bəndinə əsasən Vergi Məcəlləsinə 109.8-ci maddə əlavə edilmişdir.

Bu Qanunla www.taxes.gov.az/mecelle/deyishiklik <http://www.taxes.gov.az/mecelle/deyishiklik> internet ünvanı üzrə tanış ola bilərsiniz.

Odur ki, malların alınması ilə bağlı çəkilən xərcləri təsdiq etmək üçün mal təqdim edənlərdən (göndərənlərdən) qanunvericiliklə müəyyən edilmiş sənədləri tələb etməlisiniz.

* * *

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən 01.01.2017-ci il tarixdən etibarən vergi qanunvericiliyinin pozulmasına görə tətbiq olunan maliyyə sanksiyalarında bir sıra əlavə və dəyişikliklər edilmişdir.

Vergi ödəyicilərinin bütün maliyyə sənədləri, mühasibat kitabları, hesabatları, smetaları, nağd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri ilə yanaşı, yoxlamaların keçirilməsi zamanı yoxlamaya aid olan məsələlərə bağlı vergi ödəyicilərindən və ya onun vəzifəli şəxslərindən lazımi izahatların, arayışların və məlumatın, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda elektron auditin məqsədləri üçün vergi ödəyicisinin və onun filiallarının elektron daşıyıcılarındakı məlumatların, vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən şəxslərdən həmin müqavilənin tələblərindən irəli gələn sənədlərin və məlumatların (o cümlədən elektron formatda məlumatların) müəyyən edilmiş müddətlərdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsinə, o cümlədən vergi orqanlarının vergi nəzarətinin həyata keçirilməsi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən daxil olmuş sorğuların icrası ilə əlaqədar edilmiş müraciətinin 10 iş günü ərzində icra edilməməsinə görə vergi ödəyicisinə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq ediləcəkdir.

Hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq təqvim ili ərzində aşağıda göstərilən hər bir şəxs üzrə ümumi dəyəri 500.000 manatdan artıq olan əməliyyatlara dair Vergilər Nazirliyinin müəyyən etdiyi formada arayışı təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən 500 manat məbləğində maliyyə sanksiyası tətbiq ediləcəkdir:

—Azərbaycan Respublikasının rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər;

—qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə həmin qeyri-rezidentin özü və ya onun başqa dövlətlərdə yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi;

—Azərbaycan Respublikasının rezidenti və (və ya) qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlər.

Qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların nağd qaydada həyata keçirilməsinə görə malı (işi, xidməti) təqdim edən vergi ödəyicisinə qanunvericilik pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinə məxsus pul vəsaitlərinin uçotdan yayındırılmasına görə, habelə vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-faktura, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsi, həmin mallar vergi ödəyicisinin özü tərəfindən istehsal edildikdə isə Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən iqtisadi fəaliyyət sahələri üzrə vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları ilə müəyyən edilmiş qaydada tərtib edilən sənədlərdən ən azı biri olmadıqda:

—pul vəsaitinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsinə və ya uçota alınmamasına görə - 1000 manatdan çox olan hissəsinin 5 faizi, il ərzində belə hala təkrar yol verdikdə 1000 manatdan çox olan hissəsinin 10 faizi miqdarında;

—malların alışını və ya mədaxilini təsdiq edən yuxarıda qeyd olunan sənədlərdən ən azı biri olmadıqda - alıcıya təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq ediləcəkdir.

Vergi orqanından "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" almadan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə aşağıda qeyd olunan fəaliyyət növü (növləri) ilə məşğul olan vergi ödəyicisinə təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faizi miqdarında, təqvim ili ərzində belə hallara iki və daha çox dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir:

—toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət;

—fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət;

—çəkməçi, pinəçi;

—saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri;

—fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşbaz, gözətçi və digər analoji işlər;

—nəqqaşlıq emalatxanalarının fəaliyyəti.

Belə ki, 01.01.2017-ci il tarixdən qüvvəyə minən "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 16.12.2016-cı il tarixli 454-VQD nömrəli Qanununun 1.21.2-ci, 1.22.2-ci və 1.22.4-cü bəndlərinə əsasən Vergi Məcəlləsinə müvafiq olaraq 57.4-cü, 58.7-1-ci və 58.12-ci maddələr əlavə edilmiş, 1.21.1-ci və 1.22.3-cü bəndlərinə əsasən Vergi Məcəlləsinin müvafiq olaraq 57.3-cü və 58.8-ci maddələri yeni redaksiyada verilmişdir.

Bu Qanunla www.taxes.gov.az/mecelle/deyishiklik <http://www.taxes.gov.az/mecelle/deyishiklik> internet ünvanı üzrə tanış ola bilərsiniz.

Odur ki, maliyyə sanksiyalarına məruz qalmamaq üçün vergi qanunvericiliyinə riayət edilməsi Sizə tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1), Sizə ən yaxın vergi ödəyicilərinə xidmət mərkəzinə—10 saylı Ərazi Vergilər İdarəsinə və ya istənilən vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət edə bilərsiniz.

(Ardı gələn sayımızda).